# Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında sahibkarlığın inkişafının stimullaşdırılması məqsədi ilə **qərara alır:**

**Maddə 1. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması**

Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar *2021-ci il yanvarın 1-dək* dayandırılır.[1]

**Maddə 2. Qanunun tətbiq dairəsi**

2.1. Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş müddətdə yalnız vergi yoxlamaları, *müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar, habelə* insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır.[2]

2.2. Bu Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılan yoxlamalara şamil edilmir.

2.3. Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi ilə bağlı digər məsələlər bu Qanunun və onun əsasında qəbul edilmiş normativ hüquqi aktların müddəaları nəzərə alınmaqla "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 3. Qanunun tələbləri pozulmaqla aparılan yoxlamaların nəticələri**

3.1. Bu Qanun və onun əsasında qəbul edilmiş normativ hüquqi aktların tələblərinin pozulması ilə aparılan yoxlamaların hüquqi nəticəsi yoxdur.

3.2. Sahibkar bu Qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti orqanına, prokurorluq orqanlarına, habelə inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

**Maddə 4. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2015-ci il noyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1410-IVQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 oktyabr 2017-ci il tarixli **845-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 noyabr 2017-ci il, № 243, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1973)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 31 oktyabr 2017-ci il tarixli **845-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 noyabr 2017-ci il, № 243, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1973)** ilə 1-ci maddədə "**2 (iki) il müddətinə**" sözləri "**2021-ci il yanvarın 1-dək**" sözləri ilə əvəz edilmişdir.

[2] 31 oktyabr 2017-ci il tarixli **845-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 noyabr 2017-ci il, № 243, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1973)** ilə 2.1-ci maddənin birinci cümləsinə "**yoxlamaları,**" sözündən sonra "**müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar, habelə**" sözləri əlavə edilmişdir.